Ədəbiyyat qəzeti

19 iyun 2020-ci il 21

# Fəxrəddin TEYYUB-70



Hörmətli Fəxrəddin müəllim!

Sizi - tanınmış şairi 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik.

Siz 23 aprel 1950-ci ildə Lənkəran rayonunun Şıxəkəran kəndində anadan olmusunuz.

1957-ci ildə Şıxəkəran kənd orta məktəbini bitirmisiniz. Erkən yaşlarında bədii yaradıcılığa başlamısınız. İlk şeirləriniz Lənkəranın "Leninçi" qəzetində dərc olunub.

1980-ci ildə İqtisad Universitetinin iqtisadiyyat fakültəsini bitirdikdən sonra hüquq-mühafizə orqanlarında polis nəfəri kimi işə başlamısınız.

1998-ci ildə Polis Akademiyasını bitirmisiniz, 1994-cü ildən 2005-ci ilə qədər polis orqanlarında rəhbər vəzifələrdə çalışmış, polkovnik rütbəsinə qədər yüksəlmisiniz.

"Həsrətin ünvanı", "Kölgəm mənim yol yoldaşım", "Mən səninlə barışmaram" kitablarınız oxucular tərəfindən maraqla qarşılanıb.

Xalq şairi Musa Yaquba həsr etdiyiniz "Buynuz bayatıları" silsilə şeirlərimiz orijinallığı, bədii siqləti ilə seçilir, ölkəmizin tarixi keçmişini, "Buynuz" kəndinin fəlsəfəsini bədii lövhələrlə əks etdirir.

Şeirlərinizdə vətənimizin təbiəti, iqtisadi yüksəlişi, gənclərə sevgi səmimi bir dillə tərənnüm olunur.

Qarabağa, xüsusən, Şuşa şəhərinə həsr etdiyiniz şeirlər radio və televiziya dalğalarında müntəzəm səslənir.

Əsərləriniz İranda, Türkiyədə və başqa xarici ölkələrdə vaxtaşırı çap olunur.

2010-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz.

Hörmətli Fəxrəddin müəllim!

Sizi - qələm dostumuzu bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, həyatda daim sevincli günlər arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**